*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Derleme Makale | Review Article*
*Geliş tarihi |Received:10.03.2024*
*Kabul tarihi |Accepted:18.04.2024*
*Yayın tarihi |Published:25.04.2024*

**Elnarə Seyidova**

https://orcid.org/0009-0001-0486-2324
*Nakhchivan State University, Doctor of Philosophy in Philology, Nakhchivan-Azerbaijan, eli.seyid.77@mail.ru*

**Behbud Məmmədov**

https://orcid.org/0009-0003-4685-1142
*Graduate Student, Nakhchivan University, Department of Geography, Nakhchivan-Azerbaijan, behbudm01@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Seyidova, E., Məmmədov, B. (2024). Ərazinin coğrafi xüsusiyyətlərinin diyarşünaslıq cəhətdən öyrənməsi. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 1417-1424, https://doi.org/10.46868/atdd.2024.753

# Ərazinin coğrafi xüsusiyyətlərinin diyarşünaslıq cəhətdən öyrənməsi

***Xülasə***

*Coğrafi diyarşünaslıq müasir ümumtəhsil məktəblərində tədris və tərbiyə işinin praktikasında formalaşmaqla təşkilati və metodik işlərin intensivləşdirilməsinin səmərəli pedaqoji vasitələrindən biri kimi qəbul edilir. Diyarşünaslığın müasir inkişafı dövrü onun elmi-pedaqoji problemlərinin tədqiqi ilə səciyyələnir və bu istiqamətdə bir çox işlər görülmüşdür. Yaşadığımız ərazidə hərtərəfli fiziki-coğrafi və iqtisadi-coğrafi tədqiqatların aparılması diyarşünaslıq işinin mürəkkəb məsələlərindən biridir. Bu vəzifə təkcə tələbələrin yaşadıqları ərazinin təbii şəraitinin (relyef, geoloji quruluş, torpaqları, bitki örtüyü və s.) hərtərəfli öyrənmək deyil, həm də onları təbii-ərazi kompleksi kimi tədqiq etməklə, onun təbii inqrediyentləri arasındakı əlaqəni və qarşılıqlı asılılığı aşkar etməkdən ibarətdir. Bu işdə ərazi istehsalının planlaşdırılması, iqtisadiyyatı və təşkili, istehsal münasibətləri, əhalinin sosial şəraiti məsələlərini ətraflı öyrənən tələbələr iştirak edir. Kompleks diyarşünaslıq tədqiqatları tematik*

BY NC
Creative Commons Licence

*ekskursiyaların, görüşlərin, xalq təsərrüfatı mütəxəssisləri ilə söhbətlərin təşkili, tələbələrin elmi-tədqiqat, axtarış, uyğun ədəbiyyatların, yerli dövri mətbuatın, yerli planlaşdırma orqanlarının materialları və s. ilə ətraflı tanış olması nəticəsində həyata keçirilir.*

***Açar sözlər:*** *Coğrafi diyarşünaslıq, fiziki-coğrafi, iqtisadi-coğrafi, yerli materiallar, öyrənmə*

# Geography of geographical features of the region learning in terms of

***Abstract***

*Geographical local studies are considered as one of the effective pedagogical means of intensifying organisational and methodical work, being formed in the implementation of teaching and educational work in modern general education schools. The modern period of development of the country's studies is characterised by the study of scientific and pedagogical problems and many studies have been carried out in this direction. Conducting comprehensive physical-geographical and economic-geographical studies in the region where we live is one of the complex issues of local studies. This task is not only to comprehensively study the natural conditions of the region where students live (relief, geological structure, soil, vegetation, etc.), but also to reveal the relationship and interdependence between natural components by studying the natural regional complex. In this study, students are engaged in a detailed study of regional production planning, economy and organisation, production relations, social conditions of the population. Comprehensive local studies include the organisation of thematic excursions, meetings, interviews with national economic experts, students' scientific research, research, study of relevant literature materials, local periodicals, local planning authorities, etc. The study is carried out as a result of a detailed acquaintance.*

***Keywords:*** *Geographical studies, physical-geographical, economic-geographical, local materials, learning*

## Giriş

Diyarşünaslıq elminin tədqiqat obyekti olan diyar-yerli məhəll, doğma ölkənin kiçik bir coğrafi hissəsi kimi nəzərdə tutulur. Bu zaman Azərbaycan Respublikasının hansı ərazisinin nəzərdə tutulmasının heç bir fərqi yoxdur. Doğma ölkənin özünəməxsus təbii-coğrafi mövqeyə malik olmasını nəzərə alsaq, deyə bilərik ki, tədqiq edilən hər bir ərazi müxtəlif coğrafi xüsusiyyətlərə malikdir. İstər fiziki-coğrafi, istərsə də iqtisadi-coğrafi nöqteyi-nəzərdən diyarın vilayətlərinin oxşar və fərqli xüsusiyyətləri mövcuddur. Buna görə də tədqiqat apararkən həmin ərazilərin digər coğrafi-vilayətlərdən hansı xüsusiyyətlərinə görə fərqləndiyini aşkara çıxarmaq lazımdır. Bundan əlavə təbii-coğrafi mühitin, şəraitin xüsusiyyətlərinə uyğun olaraq hansı təsərrüfat sahələrinin yerləşdirilməsinin mümkünlüyünü də müəyyən etmək lazımdır. Diyarın fiziki coğrafi və sosial-iqtisadi cəhətdən öyrənilməsi kompleks şəkildə həyata keçirilir. Belə ki, ilk öncə ərazinin təbii-coğrafi xüsusiyyətləri, onun relyefi, iqlimi, quru suları, flora və faunası tədqiq edilir və alınmış tədqiqat nəticələrinin əsasında müəyyən cədvəllər, diaqramlar

hazırlanır. Bundan əlavə diyarı sosial-iqtisadi cəhətdən öyrənmə zamanı isə onun iqtisadi–coğrafi mövqeyini, təsərrüfatını, təsərrüfatın ərazi quruluşunu, sənaye və ya kənd təsərrüfatı müəssisələrini, nəqliyyatını, ixrac və idxal olunan məhsullarını, ixtisaslaşma sahələri, istehlak bazarları və s. əhalisi, onların şəhər və ya kənd məskunlaşması, urbanizasiyası miqrasiyası, yaş-cins qrupları da tədqiq edilir. Ümumən götürdükdə isə diyarın öyrənilməsi təbii-coğrafi şəraitinin kompleks şəkildə öyrənilməsidir. Belə ki, ərazinin əsas fiziki-coğrafi şəraitinə uyğun olan elementlər, onların mövcud olan mühüm qarşılıqlı əlaqələri və qanunauyğunluqları eyni zamanda bu xüsusiyyətlərin onların təsərrüfatının, inkişafına və paralel olaraq isə əhalinin yerləşməsinə təsiri kimi məsələlər nəzərdə tutulur. Bu coğrafi xüsusiyyətlər bir-biri ilə qarşılıqlı əlaqəli olduqları üçün onların öyrənilməsi və nəticələrinin də qeyd olunması birgə aparılmalıdır. Bu zaman diyarın istər fiziki-coğrafi, istərsə də sosial-iqtisadi cəhətdən öyrənilməsi kimi məsələlərə diqqət edilməlidir.

### 1.Ayrı-ayrı mövzuların tədrisində diyarşünaslıq materiallarından istifadənin əhəmiyyəti

Biz bu məqalədə orta ümumtəhsil məktəblərində qəbul edilmiş təhsil standartlarına uyğun olaraq VII-X siniflər üçün coğrafiya dərslərində diyarın öyrənilməsi zamanı ərazinin fiziki, iqtisadi, sosial bölmələri əsas götürülməklə öyrənmişik. Onu da qeyd edək ki, müşahidələrdə müəllimlər və məktəblilər diyarın təbii sərvətləri və onunla birbaşa bağlı olaraq fəaliyyət göstərən istehsal müəssisələri haqqında da fiziki və iqtisadi-coğrafi biliklərə malik olmaqla diyarın tədqiqi ilə məşğul olmaq imkanı əldə edirlər. Onlar bu məsələlərə müxtəlif aspektlərdən yanaşa bilərlər. Məsələn, tədqiq edilən ərazinin meşə ehtiyatı çoxdursa, faydalı qazıntılarla təmin olunma dərəcəsi yüksəkdirsə tədqiqat prosesində şagirdlər bu kimi coğrafi anlayışları araşdırıb nəticə əldə edə bilərlər. Ərazinin meşə ehtiyatının hansı ağac növləri ilə zəngin olduğunu, təsərrüfatda nə dərəcədə istifadə edildiyini, faydalı qazıntıların hansı növünün üstünlük təşkil etdiyini, onların çıxarılmasının iqtisadi cəhətdən rentabelli olub-olmamasını, doğma ölkənin iqtisadiyyatının fonunda diyarın iqtisadiyyatının inkişafı məqsədilə bu faydalı qazıntı yataqlarının istifadəsi və s. kimi məsələlər öyrənilə bilər. Diyarşünaslıq işinin təşkilində kompleks yanaşma prinsipi doğma yurdun - onun tarixinin, təbiətinin, xalq təsərrüfatının və onun inkişaf perspektivlərinin, etnoqrafiyasının, ədəbiyyatının, incəsənətinin və s.-nin hərtərəfli öyrənilməsi deməkdir (Safullin, 1979). Bunu müxtəlif kurslarda tədris proqramına uyğun olaraq fərqli mövzuların tədrisi zamanı həyata keçirirlər.

Əgər diyarı fiziki və iqtisadi-coğrafi cəhətdən öyrənmək istəyiriksə, ilk növbədə onun əsas etibarilə coğrafi mövqeyini müəyyənləşdirmək və onun haqqında düzgün məlumata malik olmaq lazımdır. Diyarın istər fiziki, istərsə də iqtisadi-coğrafi mövqeyini yerli materiallar

əsasında öyrənmək üçün ilk öncə xəritələrdən istifadə zəruri hesab edilir. Xəritələr əsasında diyar ilə qonşu olan ərazilər müəyyən edilir və onun həm fiziki, həm də iqtisadi-coğrafi mövqeyi dərsin tələblərinə uyğun əsaslandırılır.

Diyarın fiziki və iqtisadi cəhətdən öyrənilməsi həyata keçirildiyi zamanı ilk öncə onun kartoqrafik əsası haqqında düzgün biliyə malik olmaq vacibdir. Öyrənmə prosesi müddəti ərzində diyarın müvafiq xəritələri idarə və müəssisələrdən əldə olunmalıdır. Lakin bəzən bu idarə və müəssisələrdən xəritələri tapmaq mümkün olmaya bilər. Bu zaman tədris proqramına uyğun olaraq ərazinin xəritələrinin hazırlanması zəruridir. Bu xəritələr Arcgis, Mapinfo və s. kimi proqramlar vasitəsilə hazırlana bilər. Xəritələrdən əlavə həmçinin ərazinin-diyarın topoqrafik planı da ekskursiya müddəti ərzində şagirdlərin müstəqil tədqiqat tapşırığı kimi çox da mürəkkəb olmayan bir formada hazırlanması mümkündür. Şagirdlər bu topoqrafik planı hazırlamaqla həmçinin diyarı fiziki və iqtisadi cəhətdən öyrənməni daha yaxşı həyata keçirə biləcəklər. Bunun üçün ilk növbədə daha yaxın ərazilərin topoqrafik planlanması həyata keçirilməlidir. Həyata keçirilən bu işlərin özlüyündə diyarın təbii şəraitinin-onun iqlimi, quru suları, flora və faunası, təbii komplekslərinin öyrənilməsi durur. Bu kimi məsələlərin öyrənilməsi və tədqiq edilməsi əsas önəm daşımaqla diyarın fiziki cəhətdən öyrənilməsinin əsasını təşkil edir. Şagirdlər bunlar haqqında düzgün biliklərə malik olduqları zaman diyarın fiziki-coğrafi cəhətdən öyrənilməsini tam şəkildə həyata keçirə biləcəklər.

Tədris prosesi ərazində istər xəritələrin hazırlanması zamanı, istərsə də topoqrafik planın hazırlanması şagirdlərə diyarı fiziki-coğrafi cəhətdən öyrənməyə köməklik göstərir. Çünki bu kimi kartoqrafik işlərin icrası zamanı şagirdlər diyarın böyük bir hissəsini tədqiq edirlər. Bu tədqiqat prosesi ekskursiya müddəti ərzində və ya ekskursiyadan kənar da icra oluna bilər. Şagirdlər müəyyən plan üzrə müəllimin rəhbərliyi ilə bu işlərin icrasını həyata keçirirlər. Tədqiqat zamanı isə müəyyən nəticələr əldə edilir və bu nəticələr isə xəritələrin, topoqrafik planların hazırlanmasında istifadə edilir.

Diyarın fiziki-coğrafi cəhətdən öyrənilməsi təkcə xəritə və planların hazırlanması ilə kifayətlənmir. Burada həmçinin onun relyefi, hansı dağlarla və düzənliklərlə əhatə olunması, iqlimi, hansı iqlim qurşağında yerləşməsi, temperatur rejimi, yağıntıları, quru suları, çayları, su anbarları, gölləri, su kanalları və s. kimi məsələlər də öyrənilir. Təbii ki, bu kimi məsələlərin öyrənilməsi tədris proqramına uyğun olaraq müəyyən plan üzrə ekskursiyalar vasitəsi ilə həyata keçirilir. Coğrafiyanın tədrisində ekskursiyalar, tədris proqramındakı hədəflər çərçivəsində, hər hansı bir yeri ya da orada baş vermiş və ya baş verəcək hadisələrin nəticələrini, oradakı mövcud fiziki və iqtisadi xüsusiyyətləri görmək təbii mühitin öyrənmək üçün məktəb tərəfindən təşkil

olunmuş fəaliyyətlər olaraq adlandırılır (Coğrafya Öğretiminde Yöntem və Yaklaşımlar, https://www.researchgate.net/publication).

Şagirdlərin diyarı fiziki və iqtisadi cəhətdən öyrənməsinin düzgün istiqamətlənməsi üçün müşahidələrin aparılması mühüm əhəmiyyət kəsb edir. Buna müvafiq olaraq müşahidə stansiyalarının yaradılması zəruri hesab edilir. Bu stansiyalar müşahidələrin düzgün aparılması və nəticələrinin qeyd olunması üçün bütün növ zəruri cihaz və alətlərlə təmin edilməlidir. Tədris proqramına uyğun olaraq həmçinin burada dərs məşğələləri keçirilə bilər. Məşğələlərin keçirilməsi üçün müəyyən sinif otağı ayrılır. Bu sinif otağında şagirdlərin təhlükəsizliyi baxımından tədbirlər görülür. Həmçinin cihaz və alətlərə nəzarət etmək və stansiyanın işinin düzgün aparılması üçün şagirdlər arasından növbətçilər seçilir (Həsənli, 2002). Diyarı fiziki-coğrafi nöqteyi-nəzərdən öyrənmək üçün təhsil standartlarına uyğun olaraq müəyyən qaydalar nəzərdə tutulub ki, ərazinin təbiəti, təbii şəraiti bu qaydalar əsasında öyrənilsin.

Diyarın mövcud relyefini və əsas geoloji quruluşunu öyrənmək üçün ən əsas olaraq Azərbaycan Respublikasının fiziki coğrafi xəritəsinə və onunla bərabər yaşadığımız rayon da daxil olmaqla digər fiziki-coğrafi rayonların xəritələrinə müraciət etmək lazımdır. Ərazinin özünəməxsus relyefinin əsas ümumi xarakterləri xəritələr əsasında öyrənilir. Təcrübə müddəti ərzində aparılan tədqiqatlar ərzində diyarın relyefində mövcud olan müsbət və mənfi relyef formaları, onların bir-biri ilə mövcud olan əlaqəsi, yaranma səbəbləri, antropogen təsir haqqında şagirdlərə məlumatlar çatdırılır. Tədqiqatların bu növü geomorfoloji tədqiqatlar adlanır. Məsələn VII sinif coğrafiya dərsliyindəki "Xarici amillərin relyefə təsiri", "Dağların yaranması", və s. mövzuların tədrisi zamanı bu məsələlərin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır (Qəribov, Seyfullayeva ve Hümbətova, 2018, s. 52-57). Tədqiqatların ən əsas xüsusiyyəti ondan ibarətdir ki, diyarın geoloji quruluşu və relyef arasında mövcud olan qanunauyğunluğu şagirdlər dərk etməyi bacarsınlar. Bundan əlavə ərazinin relyefini düzgün mənimsəyən şagirdlər həmçinin oranın faydalı qazıntı yataqları barəsində də düzgün məlumata malik olacaqlar. Faydalı qazıntıların hansı səbəbdən bu ərazidə mövcud olması, həmçinin onların yaranmasının ərazinin relyefi və geoloji quruluşu ilə bağlılığı barəsində olan suallara da cavab tapmış olacaqlar. Əgər şagirdlərə faydalı qazıntılar haqqında məlumat verilirsə mütləq qaydada onların şərti işarələri də mənimsədilməli və xəritələrdə qeyd olunmalıdır. Eyni xüsusiyyətlərə malik olan faydalı qazıntılar bir qrupda müəyyən edilməli və şagirdlərə bunların hansı səbəbdən qruplaşdırıldığı başa salınmalıdır. Şagirdlər həmçinin diyarın faydalı qazıntı yataqları barəsində öyrəndikləri əsasında doğma ölkənin digər rayonlarında da mövcud olan faydalı qazıntı yataqları barəsində də məlumatlara malik olacaqlar. Həmçinin hansı faydalı qazıntının çıxarılmasının iqtisadi cəhətdən rentabelli olması və xammal kimi ixrac əhəmiyyəti

daşıması haqqında məlumatlara malik olduqda onlar diyarı iqtisadi cəhətdən öyrənməni həyata keçirmiş olacaqlar. Diyarın spesifik faydalı qazıntılarını ekskursiya müddətində əldə edərək coğrafiya kabinetlərində kolleksiya halında saxlanılması fənnin tədrisinin əyaniliyini təmin etmək məqsədi daşıyır.

Diyarı fiziki cəhətdən tədqiq edərkən onun iqlim xüsusiyyətləri də araşdırılmalı və öyrənilməlidir. Bu zaman ilk öncə ərazidə mövcud havanın temperatur və yağıntı rejimi qeydə alınır. Bu qeydəalma ay, fəsil, illər üzrə həyata keçirilir. Qeydiyyatın aparılması gün ərzində 8 dəfə icra olunur. Aparılan işlərdən sonra qrafiklər hazırlanır. Bu qrafiklərdə diyarın həm temperaturu, həm də yağıntıları qeyd olunur. Qrafikə nəzərən həmçinin ərazinin orta aylıq və illik yağıntı, temperaturu çıxarıla bilər. Hazırlanmış müvafiq qrafik sayəsində ərazinin temperaturunun və yağıntının maksimum və minimum kəmiyyət göstəricilərini əyani surətdə görüb dərk etmək olur. Bunlardan əlavə diyarın hansı hissəsinə maksimum və ya minimum temperaturun müşahidə edildiyini və yağıntı düşdüyünü öyrənmək mümkün olacaqdır. Həyata keçirilən bu işlərin tərkib hissəsi olaraq diyarda hansı hava kütlələrinin hakim olduğu, ərazinin hansı iqlim qurşağında yerləşdiyini tədqiqat nəticəsində bilmək olacaqdır. Diyarın iqlim xüsusiyyətləri tədqiq edilərkən iqlimin fəsillər üzrə dəyişməsinin kənd təsərrüfatına hansı dərəcədə təsir etdiyini, iqlim xüsusiyyətlərinə uyğun olaraq hansı kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin mümkün olduğunu dərk etmək olar. Yetişdirilən bu kənd təsərrüfatı məhsullarına qulluğun hansı aylarda icra olunması, onların yetişdirilməsinə ziyan vura biləcək təbiət hadisələri, onlardan mühafizəni necə təşkil etmək olar və s. kimi suallar haqqında tədqiqat nəticəsində məlumata malik olunur.

Diyarı fiziki-coğrafi cəhətdən öyrənərkən onun hidrologiyası haqqında məlumatlara sahib olmaq lazımdır. Ərazinin daxili suları barəsində düzgün biliklərə malik olmaq üçün ilk növbədə onun iqlimi və relyefi haqqında məlumatlara yiyələnmək lazımdır. Çünki diyarın müvafiq çaylarının axın istiqaməti, rejimi, qidalanma mənbələrinin formalaşmasına həmin diyarın relyef və iqlimi birbaşa təsir göstərir. Bu səbəbdən diyarın relyef və iqlimi barəsində əldə olunmuş məlumatlar əsasında ərazinin çay və göllərinin xarakteristikası verilir. “Azərbaycanın çayları” və “Çayların hidroloji xüsusiyyətlərinin təyini”mövzuları (Qəribov, Alxasov və d., 2017, s.100-107). müvafiq xəritələrinə əsasən, hansı çayların ərazidən axdığını müəyyən etdikdən sonra relyef və iqlim göstəricilərinə uyğun olaraq çayların daha mükəmməl öyrənilməsi həyata keçirilir. Bu prosesdən sonra isə çayların müvafiq qrafiki yaradılır, nəticədə bolsulu və azsulu vaxtları müəyyən edilir. Tərtib edilmiş bu məlumatlara həmçinin çayların təsərrüfat əhəmiyyəti olub-olmaması da qeyd olunmalıdır.

Ərazinin fiziki-coğrafi nöqteyi nəzərdən öyrənmənin bir tərkib hissəsi də onun bitki və heyvanlar aləmini tədqiq etmək təşkil edir. Bitki və heyvanlar aləminin xarakteristikasını verərkən ərazinin müxtəlif zonalarında mövcud olan bitki və heyvanlar aləminin təsviri vermək lazım gəlir. Bitkilər haqqında məlumat verdikdə həmçinin əhali tərəfindən əkilən bitkilər, onların əsas mövcud olan əkin sahələri və s. haqda da məlumatlar əks olunmalıdır. Yaşadığımız ərazini diyarşünaslıq cəhətdən tədqiq edərkən onun əhalisini, əhalinin yaş-cins qruplarını, milli-dini-etnik tərkibini, sosial vəziyyətini, əmək qabiliyyətli olan və olmayan hissəsi və s. də tədqiq edib, öyrənmək lazımdır.

Diyarı iqtisadi cəhətdən öyrənən zaman, əsasən, ərazinin mövcud təsərrüfatı, onun ərazi quruluşu, istehsal və kənd təsərrüfatı müəssisələrini, burada istehsal olunan məhsulları və s. tədqiq etmək diyarı öyrənməni daha düzgün istiqamətləndirir. İqtisadi və sosial tədqiqatlar coğrafi tədqiqatın məzmununa görə növləridir. İqtisadi tədqiqat zamanı şagirdlər əhalinin təsərrüfatını, onların yerləşməsini, əlaqələrini, istehsal sahələrini və s. prosesləri öyrənirlər (Verdiyeva. 2021). Diyarın iqtisadi cəhətdən öyrənilməsi öyrənmənin xüsusi bölməsini təşkil edir. Bu səbəbdən də ərazinin təsərrüfat sahələri və mövcud müəssisələrin öyrənilməsi xüsusi proqram üzrə həyata keçirilir.

**Nəticə**

Bir sözlə, doğma diyarı tədqiq edərkən onun təbii-coğrafi şəraitini, iqtisadi-coğrafi mövqeyini, tarixini, mədəniyyətini, adət-ənənələri öyrənmək zəruri hesab edilir. Sinifdənkənar coğrafi diyarşünaslıq tələbələrin coğrafi mədəniyyətinin məqsəd və vəzifələri ilə, həmçinin doğma diyarın konkret təbii-iqtisadi şəraitinin öyrənmənin məzmunu ilə müəyyən edilir. Məktəbdənkənar yerli tədqiqatlar aşağıdakılara kömək edir:

- tələbələr təbii mühiti, təbii ehtiyatları maddi istehsalın yaradılması və inkişafının zəruri şərti kimi qəbul edərək cəmiyyətin maddi rifahının və mədəni səviyyəsinin yüksəldilməsi mənbəyi kimi tədqiq edir, təbiəti mühafizə və ekoloji probleminin mahiyyətinin öyrənir və onların bir sıra bəşəri problemin həllində rolunu dərk edir;
- tələbələr müasir kənd təsərrüfatı və sənaye istehsalının təbii və sosial-iqtisadi şəraitlə əlaqəsini, istehsal texnologiyasını, təşkilini, planlaşdırılmasını iqtisadi rayon, şəhər miqyasında xalq təsərrüfatının inkişaf perspektivləri ilə tanış olur (Naxçıvan Muxtar Respublikası və bütövlükdə ölkə səviyyəsində);
- Tələbələr coğrafi biliklərin məzmununu əyani şəkildə öyrənməklə coğrafi biliklərə, bacarıqlara və vərdişlərə yiyələnir;

Didaktik dillə desək, sinifdənkənar diyarşünaslığın əsas məqsədi coğrafiyanın tədrisində elmi tədqiqat yanaşmasının həyata keçirilməsi üçün lazımi şərait hazırlamaqdır. Başqa sözlə

desək tələbələrin öz doğma torpağının təbii və sosial-iqtisadi şəraiti haqqında kifayət qədər geniş biliyi, nisbətən zəngin idrak təcrübəsi, sinifdənkənar diyarşünaslıq işi prosesində tədris prosesinin intensivləşdirilməsinin çox mühüm psixoloji-pedaqoji ilkin şərti, tədris və tərbiyə ilə həyat arasında sistemli və məqsədyönlü əlaqənin praktiki həyata keçirilməsi üçün şərtdir. Sinifdənkənar coğrafi diyarşünaslıq öz pedaqoji mahiyyətinə görə məktəblə həyat arasında əlaqədir.

Yuxarı qeyd olunanları ümumiləşdirsək belə qənaətə gəlmək olar ki, diyarı fiziki cəhətdən öyrənərkən onun iqlimi, relyefi, daxili suları, flora və faunası, təbii zonaları və s. iqtisadi cəhətdən öyrənərkən isə mövcud olan təsərrüfat, onun əsas sahələri, ərazi üzrə paylanması, istehsal və kənd təsərrüfatı müəssisələri və s. haqqında geniş araşdırma edib əldə olunan məlumatları sintez halında qeyd etmək lazımdır. Çünki ərazinin fiziki-coğrafi xüsusiyyətləri ilə iqtisadi-coğrafi xüsusiyyətləri bir-biri ilə bağlılıq təşkil edir.

**Ədəbiyyat**

Coğrafya Öğretiminde Yöntem və Yaklaşımlar. Available from: https://www.researchgate.net/publication/293333392_Cografya_Ogretiminde

Həsənli, O. (2002). *Şagird şəxsiyyətinin formalaşdırılması prosesində diyarşünaslıq materiallarından istifadənin sistemi*. Elm.

Qəribov, Y., Alxasov, O., və d., (2017). *Ümumtəhsil məktəblərinin 10-cu sinifi üçün Coğrafiya fənnindən dərslik*. Bakı.

Qəribov, Y., Seyfullayeva, N., Hümbətova, Ş. (2018). *Ümumtəhsil məktəblərinin 7-ci sinifi üçün Coğrafiya fənnindən dərslik*. Bakınəşr.

Safullin, A. Z. (1979). *Orta məktəblərdə coğrafi diyarşünaslıq. Müəllimlər üçün dərslik*. Prosveshchenie.

Verdiyeva, M. İ. (2021). *Coğrafiyanın tədrisində diyarşünaslıq prinsipi*. Magistrantlar üçün *dərs vəsaiti.* Bakı.